## "TR-AZ Menşe İspat Belgesi"nin geçerliliği

1. "TR-AZ Menşe İspat Belgesi", ihracatçı ülkede düzenlenme tarihinden itibaren on ay süreyle geçerlidir ve bu süre zarfında ithalatçı ülkenin gümrük idarelerine ibraz edilmek zorundadır.

2. Paragraf 1'de belirtilen son ibraz tarihinden sonra ithalatçı ülkenin gümrük idaresine ibraz edilen "TR-AZ Menşe İspat Belgesi", bu belgelerin belirlenmiş son tarihe kadar ibraz edilememesinin istisnai durumlardan kaynaklanması halinde tercihli muamele uygulanmak üzere kabul edilebilir.

3. Diğer geç ibraz hallerinde ithalatçı ülkenin gümrük idaresi, ürünlerin belirtilen son tarihten önce sunulmuş olması kaydıyla "TR-AZ Menşe İspat Belgesi"ni kabul edebilir.

## Madde 20

## Eşyanın menşeini destekleyici belgeler

"TR-AZ Menşe İspat Belgesi" kapsamındaki ürünlerin Akit Taraflardan biri menşeli olduğunu ve bu Ek'in diğer koşullarını yerine getirdiğini tevsik etmek amacıyla kullanılan, Madde 14(3)'te belirtilen belgeler, bunların yanında aşağıda belirtilenleri de içerebilir:

(a) İhracatçı veya tedarikçi tarafından, söz konusu eşyanın elde edilmesi için gerçekleştirilen işlemleri belgeleyici nitelikte, örneğin hesaplarında veya iç muhasebesinde yer alan doğrudan deliller;

(b) Akit Taraflardan birinde düzenlenmiş veya hazırlanmış, kullanılan girdilerin menşe statüsünü tevsik eden, iç mevzuat uyarınca kullanılan belgeler;

(c) Akit Taraflardan birinde düzenlenmiş veya hazırlanmış, söz konusu Akit Tarafta girdiler üzerinde yapılan işçilik veya işlemi tevsik eden, iç mevzuat uyarınca kullanılan belgeler;

(d) Bir Akit Tarafta bu Ek uyarınca düzenlenmiş, kullanılmış girdilerin menşe statüsünü tevsik eden "TR-AZ Menşe İspat Belgesi";

(e) Akit Tarafların iç mevzuatında belirtilen ve gerekli görülen diğer kanıt ve/veya belgeler.

## Madde 21

## "TR-AZ Menşe İspat Belgesi" ve eşyanın menşeini destekleyici belgelerin muhafazası

Akit Taraflarda yürürlükte bulunan iç mevzuat uyarınca, ihracatçı ve/veya "TR-AZ Menşe İspat Belgesi" düzenleyen ithalatçı ülke gümrük idareleri ve/veya yetkili makamı, eşyanın menşeinin tevsik edilmesi amacıyla sunulan belgeleri, "TR-AZ Menşe İspat Belgesi"ni ve başvuru formunu en az üç yıl muhafaza eder.

## Madde 22

## Farklılıklar ve şekli hatalar

1. "TR-AZ Menşe İspat Belgesi" üzerindeki ibareler ile ürünlerin ithalat işlemlerini yerine getirmek amacıyla gümrük idarelerine ibraz edilen belgeler üzerindeki ibareler arasında bulunabilecek küçük tutarsızlıklar, belgenin sunulan ürünlere karşılık geldiğinin ithalatçı ülke gümrük idarelerince usulüne uygun olarak tespit edilmesi kaydıyla, "TR-AZ Menşe İspat Belgesi"ni kendiliğinden geçersiz kılmaz.

2. "TR-AZ Menşe İspat Belgesi" üzerindeki ifadelerin doğruluğu üzerinde şüphe yaratması söz konusu olmayan, daktilo hatası gibi bariz şekli hatalar, "TR-AZ Menşe İspat Belgesi"nin reddedilmesini gerektirmez.

3. Başvuranın yazılı başvurusuna istinaden yapılan ve yetkili kişinin imza ve kaşesi ile onaylanan düzeltmeler dışında, "TR-AZ Menşe İspat Belgesi" üzerinde silinti, tahrip ve benzeri düzeltmelere izin verilmez. Makul nedenler bulunması halinde, belgeler iptal edilebilir.

# BAŞLIK V

# İDARİ İŞBİRLİĞİ DÜZENLEMELERİ

## Madde 23

## Karşılıklı yardım

1. Akit Tarafların gümrük idareleri, birbirlerine kendi belirlenmiş/ilgili yetkili makamlarında "TR-AZ Menşe İspat Belgesi"nin düzenlenmesinde kullanılan mühürlerin örnek baskılarını ve söz konusu belgelerin sonradan kontrolünden sorumlu gümrük idarelerinin veya ilgili yetkili makamlarının adreslerini sağlar.

2. Bu Ek'in düzgün uygulanmasını teminen Akit Taraflar, yetkili gümrük idareleri ve yetkili kılınmış makamları vasıtasıyla, birbirlerine menşe ispat belgelerinin geçerliliklerinin ve bu belgelerde yer alan bilgilerin doğruluğunun kontrolünde yardımcı olur.

## Madde 24

## Menşe ispat belgelerinin kontrolü

1. "TR-AZ Menşe İspat Belgesi"nin sonradan kontrolü, sondaj usulü ile veya ithalatçı ülke gümrük idaresinin bu belgelerin geçerliliğine, sözkonusu ürünlerin menşe statüsüne veya bu Ek'in diğer koşullarının yerine getirilişine ilişkin makul şüphesi olduğu her an yapılır.

2. Paragraf 1 hükümlerini yerine getirmek amacıyla, ithalatçı ülkenin gümrük idaresi, "TR-AZ Menşe İspat Belgesi" ve fatura veya bu vesaiklerin birer kopyasını, gerektiğinde araştırmanın gerekçelerini de belirterek ihracatçı ülkenin gümrük idaresine veya belirlenmiş/ilgili yetkili makamlara geri gönderir. "TR-AZ Menşe İspat Belgesi"nde yer alan bilgilerin doğru olmadığı kanaatini uyandıran elde edilmiş tüm belge ve bilgi, kontrol talebini desteklemek üzere gönderilir.

3. Kontrol, ihracatçı ülkenin belirlenmiş/ilgili yetkili makamları tarafından yapılır. Bu amaçla, söz konusu makamlar, uygun gördüğü her türlü delili talep etme yetkisine sahiptir.

4. Eğer ithalatçı ülkenin gümrük idaresi, kontrol sonucunun beklenmesi süresinde söz konusu ürünlere tercihli muamele tanınmasını askıya almaya karar verirse, ürünlerin gerekli görülen ihtiyati tedbirlere bağlı olarak serbest bırakılması ithalatçıya önerilir.

5. Kontrol talebinde bulunan gümrük idaresi, bu kontrolün sonuçlarından mümkün olan en kısa zamanda haberdar edilir. Bu sonuçlar, belgelerin gerçek olup olmadığını, söz konusu ürünlerin Akit Taraflardan biri menşeli olarak kabul edilip edilemeyeceğini ve bu Ek'te yer alan kuralların diğer gerekliliklerini taşıyıp taşımadığını açıkça göstermelidir.

   Bu Ek'in Madde 7'sine göre kümülasyon hükümlerinin uygulanması halinde, cevap tabi olunan belgenin (belgelerin) bir örneğini de içerir.

6. Makul şüphe olması halinde, kontrol talebine on ay içinde cevap alınamaz ise veya cevap söz konusu belgenin gerçekliğinin veya ürünlerin gerçek menşeinin tespitine imkân verecek ölçüde yeterli bilgi içermiyorsa, talepte bulunan gümrük idaresi, istisnai durumlar haricinde, tercih tanınmasını reddeder.

## Madde 25

## Anlaşmazlıkların çözümü

Madde 24'te belirtilen kontrol usulleriyle ilgili olarak, kontrol talebinde bulunan gümrük idareleri ile bu kontrolün yapılmasından sorumlu belirlenmiş/ilgili yetkili makamlar arasında çözümlenemeyen bir anlaşmazlık veya bu Ek'in yorumlanmasına ilişkin bir soru hâsıl olması halinde, bu hususlar Ortak Komite'ye sunulur. İthalatçı ile ithalatçı ülkenin gümrük idaresi arasındaki her türlü anlaşmazlık, adı geçen ülkenin mevzuatı çerçevesinde çözülür.

## Madde 26

## Cezalar

Cezalar, ürünler için tercihli muamele hakkı elde etmek amacıyla yanlış bilgi içeren bir belgeyi hazırlayan veya hazırlattıran şahıslara, ithalatçı ülkenin ulusal hukukuna/mevzuatına uygun olarak uygulanır.

## Madde 27

## Serbest bölgeler

1. Akit Taraflar, nakliye esnasında, kendi ülkelerinde bulunan bir serbest bölgeyi kullanan, "TR-AZ Menşe İspat Belgesi" kapsamında ticarete konu ürünlerin başka ürünlerle değiştirilmelerini veya bozulmalarını önleyici normal işlemler dışındaki herhangi bir işleme tabi tutulmamalarının temini konusundaki gerekli bütün tedbirleri alırlar.

2. Paragraf 1 hükümlerine istisna olarak, Akit Taraflardan biri menşeli ürünler "TR-AZ Menşe İspat Belgesi" kapsamında bir serbest bölgeye ithal olunur ve bir işlem veya muameleden geçirilirse ilgili idare, uygulanan işlem veya muamelenin bu Ek hükümlerine uygun olması koşuluyla, ihracatçının talebi üzerine yeni bir "TR-AZ Menşe İspat Belgesi" düzenler.

# BAŞLIK VI

# SON HÜKÜMLER

## Madde 28

## Gümrük ve menşe konuları Alt Komitesi

Ortak Komite altında, görevlerini ifa etmesine yardımcı olmak ve uzmanlar arasında sürekli bilgi akışı ve danışma süreci sağlamak üzere bir gümrük ve menşe konuları Alt Komitesi kurulur. Anılan alt komite Akit Tarafların gümrük ve menşe konularından sorumlu uzmanlarından oluşur.

## Madde 29

## Lahika

Bu Ek'e ait Lahika, onun ayrılmaz bir parçasını oluşturur.

## Madde 30

## Transit durumdaki ve antrepodaki eşya

Başlık II hükümlerine uygun olan ve bu Anlaşma'nın yürürlüğe girdiği tarihte nakliye halinde olan ya da bir Akit Taraf ülkesindeki antrepolarda veya serbest bölgelerde geçici depolanan eşya, ithalatçı ülkenin gümrük idaresine Anlaşmanın yürürlüğe girdiği tarihten itibaren dört ay içinde, sonradan düzenlenmiş bir "TR-AZ Menşe İspat Belgesi" ve nakliye koşullarına ilişkin tevsik edici her tür belgenin sunulması kaydıyla, menşeli olarak kabul edilebilir.

## Madde 31

## Değişiklikler

Bu Ek hükümleri, Anlaşma'nın Madde 22'si uyarınca değiştirilebilir.

## Tercihli Menşe Kuralları ve İdari İşbirliği Yöntemlerine İlişkin Lahika

| | |
|---|---|
| 1. İhracatçı (Ad, adres, ülke) | 4. № |
| 2. Eşyanın gönderildiği şahıs (Ad, adres, ülke) | **MENŞE İSPAT BELGESİ**<br><br>**TR-AZ FORMU**<br><br>Düzenleyen ____________________<br>(ülke adı)<br><br>İbraz edilecek<br>____________________<br>(ülke adı) |
| 3. Nakliye vasıtaları ve güzergahı (bilinmesi halinde) | 5. Resmi gözlemler için |

| 6. № Eşya kalem sayısı | 7. Kolilerin sayısı ve türü | 8. Eşyanın tanımı ve işaretler | 9. Menşe kriteri* | 10. Brüt ağırlık veya diğer ölçüler | 11. Fatura sayı ve tarihi |
|---|---|---|---|---|---|
| | | | | | |

| | |
|---|---|
| 12. Kontrol: Gerçekleştirilen kontrol sonucu, başvuru sahibinin beyanının doğruluğu onaylanır.<br><br>Yer ve tarih, imza ve mühür<br>-------------------------------------------- | 13. Başvuru Sahibinin Beyanı<br><br>Aşağıda imzası bulunan kişi, yukarıda ibraz edilen bilgilerin doğruluğunu beyan eder: Eşya, aşağıda belirtilen ülkede yeterli işçilikten geçirilmiş veya tamamen elde edilmiştir.<br><br>____________________<br>(ülke adı)<br>ve bu eşyanın menşei için belirlenen gereklilikleri karşılamaktadır.<br><br>Yer ve tarih, imza<br>-------------------------------------------- |

* Lütfen aşağıda yer alan menşe kriterlerinden birini belirtiniz:

- P: Madde 3(a) ve Madde 4 çerçevesinde, eşya bir Tarafta tamamen üretilmiş veya elde edilmişse, 9 no'lu kutuya "P" konur.
- C: Madde 7 çerçevesinde, eşyanın bir Taraf menşeli girdilerden münhasıran üretilmesi halinde, 9 no'lu kutuya "C" konur.
- W: Madde 5.1 çerçevesinde, eşyanın üretiminde kullanılan üçüncü taraf menşeli girdilerin %45'lik fabrika çıkış fiyatını aşmaması halinde, 9 no'lu kutuya "W" konur.

# TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ İLƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA PREFERENSİAL TİCARƏT SAZİŞİ

# TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ İLƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA PREFERENSİAL TİCARƏT SAZİŞİ

## Preambula

Bundan sonra birlikdə "Razılığa gələn Tərəflər" və fərdi olaraq "Razılığa gələn Tərəf" və ya "Tərəf" adlandırılacaq Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti,

2007-ci ildə imzalanmış "Türkiyə Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında tərəfdaşlıq və əməkdaşlıq Sazişi"nə ƏSASLANARAQ;

1992-ci ildə imzalanmış "Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş"dən irəli gələn hüquqlarını və öhdəliklərini QƏBUL EDƏRƏK;

dərin dostluq və qardaşlıq RUHU İLƏ;

"Türkiyə Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nin (bundan sonra "Saziş") onlar arasında iqtisadi və ticarət əlaqələri üçün yeni bir mühit yaradacağını ANLAYARAQ;

bu Sazişin məzmununun tədricən genişlənəcəyinə və qarşılıqlı maraq doğuran yeni sahələri əhatə edəcəyinə İNANARAQ;

ikitərəfli qarşılıqlı sərfəli ticarət mübadiləsinin artırılmasının və yaxın iqtisadi tərəfdaşlığın gücləndirilməsinin iqtisadi və xüsusi faydalar gətirəcəyinə və Razılığa gələn Tərəflərin xalqlarının həyat səviyyəsini yaxşılaşdıracağına QƏTİ İNANARAQ;

Razılığa gələn Tərəflərin digər ikitərəfli, regional və ya çoxtərəfli sazişlərindən irəli gələn hüquqlarının və öhdəliklərinin bu Sazişin müddəalarının təsiri altına düşməyəcəyini NƏZƏRƏ ALARAQ;

Türkiyənin 1963-cü il 12 sentyabr tarixində "Türkiyə Respublikası ilə Avropa İqtisadi Birliyi arasında Assosiasiyanın yaradılması haqqında Saziş"i imzaladığını NƏZƏRƏ ALARAQ;

öz iqtisadiyyatlarının gələcək inkişafını təşviq etmək məqsədilə ticarət edilə bilən malların diversifikasiyası ehtiyacını VURĞULAYARAQ;

aşağıdakılar barədə razılığa gəldilər:

## MADDƏ 1
## Məqsədlər

1. Razılığa gələn Tərəflər, bununla, Preferensial Ticarət Sazişini təsis etməyə razılaşırlar.

2. Bu Sazişin məqsədi xüsusi olaraq aşağıdakılar vasitəsilə Razılığa gələn Tərəflər arasında ticarət əlaqələrini gücləndirməkdir:

a) maddə 4-də əks olunan ümumi prinsiplər;

b) bu Sazişin I-A Əlavəsi və I-B Əlavəsi ilə müəyyənləşdirilmiş mallar üzrə tariflərin azaldılması və ya ləğv olunması və para-tariflərin və qeyri-tarif maneələrinin ləğv olunması;

c) Razılığa gələn Tərəflər arasında iqtisadi əlaqələrin harmonik inkişafı vasitəsilə ticarətin genişləndirilməsi və təşviq edilməsi;

d) Razılığa gələn Tərəflər arasında ədalətli rəqabət üçün əlverişli şərtlərin yaradılması;

e) Razılığa gələn Tərəflər arasında ticarətin davamlı artımı üçün daha proqnozlaşdırıla bilən və təhlükəsiz mühitin yaradılması.

## MADDƏ 2
## Sazişin şərhi

Bu Sazişin müddəaları, Razılığa gələn Tərəflərin bu Sazişi vicdanla həyata keçirəcəkləri və öhdəliklərinin yerinə yetirilməsindən çəkinməyəcəkləri faktı lazımi qaydada nəzərə alınaraq, beynəlxalq ümumi hüququn şərhinin adi qaydalarına uyğun olaraq şərh ediləcəkdir. Bu Sazişin Əlavələri bu Sazişin ayrılmaz tərkib hissəsidir.

## MADDƏ 3
## Anlayışlar

Bu Sazişin məqsədi üçün:

1. "Tariflər" dedikdə, Razılığa gələn Tərəflərin ərazilərində qüvvədə olan milli qanunvericiliklərinə əsasən təsis edilmiş tarif cədvəllərində müəyyən olunmuş gömrük tarifləri və ya tarifə bənzər təsirə malik gömrük rüsumları başa düşülür. Tariflər bu Sazişin 11-ci maddəsində əks olunmuş hər hansı antidempinq və kompensasiya rüsumlarını və ya bu Sazişin 12-ci maddəsində əks olunmuş ikitərəfli və qlobal mühafizə tədbirlərini əhatə etmir.

2. "Para-tariflər" dedikdə, yalnız idxal olunan mallara tətbiq olunan xarici ticarət əməliyyatlarındakı tariflərdən başqa tarifə bənzər təsirə malik sərhəd

ödənişləri, vergiləri və haqları başa düşülür. Yerli oxşar mallara eyni qaydada tətbiq olunan dolayı vergilər və ödənişlər və ya müəyyən xidmətlərin göstərilməsinə görə alınan idxal ödənişləri və bu Sazişə əsasən icazə verilən digər rüsumlar para-tarif tədbirləri hesab olunmur.

3. "Qeyri-tarif maneələri" dedikdə, Razılığa gələn Tərəflər arasında ticarəti əhəmiyyətli şəkildə əngəlləyən və ya idxalı məhdudlaşdıran tarif və para-tarifdən başqa hər hansı tədbir, tənzimləmə və ya təcrübə başa düşülür. Bu Sazişə əsasən icazə verilən tədbirlər qeyri-tarif maneələri hesab olunmayacaqdır.

4. "Mallar" dedikdə, Harmonizə Edilmiş Əmtəə Təsviri və Kodlaşdırılması Sisteminə əsasən bu Sazişin I-A Əlavəsi və I-B Əlavəsi ilə müəyyən olunmuş əmtəələr və məhsullar başa düşülür.

5. "Preferensial rejim" dedikdə, malların hərəkətində tariflərin azaldılması və ya ləğvi və qeyri-tarif maneələrinin ləğvi yolu ilə Razılığa gələn Tərəf tərəfindən bu Saziş çərçivəsində verilmiş hər hansı güzəşt və ya üstünlük başa düşülür.

6. "İkitərəfli mühafizə tədbirləri" dedikdə, bu Sazişin 12-ci maddəsində əks olunmuş mühafizə tədbirləri başa düşülür.

7. "Qlobal mühafizə tədbirləri" dedikdə, Razılığa gələn Tərəfin milli qanunvericiliyinə əsasən mənşəyindən asılı olmayaraq idxal olunan mallara tətbiq edilən mühafizə tədbirləri başa düşülür.

8. "Birgə Komitə" dedikdə, bu Sazişin 19-cu maddəsinə əsasən yaradılmış komitə başa düşülür.

9. "Keçid müddəti" dedikdə, bu Sazişin qüvvəyə mindiyi tarixdən sonrakı 10 illik müddət başa düşülür.

## MADDƏ 4
## Ümumi prinsiplər

Bu Saziş Razılığa gələn Tərəflərin iqtisadi inkişaf səviyyəsi, xarici ticarətinin dinamikası və tarif siyasəti nəzərə alınmaqla, Razılığa gələn Tərəflərin bərabər fayda əldə etməsi üçün üstünlüklərin qarşılıqlılığı prinsipi çərçivəsində tətbiq olunacaqdır.

## MADDƏ 5

**Digər sazişlərlə tənzimlənən ticarət əlaqələri**

Bu Sazişin heç bir müddəası Razılığa Gələn Tərəflərin digər ölkələrlə gömrük ittifaqlarını, sərbəst ticarət zonalarını, preferensial ticarət sazişlərini, çoxtərəfli ticarət sazişlərini və ya transsərhəd ticarət razılaşmalarını davam etdirməsini və ya yaratmasını əngəlləməyəcəkdir.

## MADDƏ 6

**Əhatə dairəsi**

Bu Sazişin müddəaları bu Sazişin I-A Əlavəsi və I-B Əlavəsi ilə müəyyən olunmuş Razılığa gələn Tərəflərin əraziləri mənşəli mallara tətbiq olunacaqdır.

## MADDƏ 7

**Güzəştlərin mübadiləsi**

1. Razılığa gələn Tərəflər bu Sazişin I-A Əlavəsində və I-B Əlavəsində qeyd olunmuş mallara münasibətdə bu Sazişin mənşə qaydalarına aid olan II Əlavəsinin müddəalarına uyğun olaraq bir-birinə güzəştlər verəcəklər.

2. Hər bir məhsul üzrə azaldılmanın tətbiq olunacağı baza tarif dərəcəsi bu Sazişin I-A Əlavəsində və I-B Əlavəsində qeyd olunmuşdur.

3. Əgər bu Sazişin qüvvəyə minməsindən əvvəl və sonra, bu Sazişin I-A Əlavəsində və I-B Əlavəsində mallar üzrə *erga omnes* əsasda hər hansı tarif azaldılması həyata keçirilərsə, belə azaldılmış tarif dərəcələri həmin azaldılmanın qüvvəyə mindiyi tarixdən etibarən bu maddənin 2-ci paraqrafında əks olunmuş baza tarif dərəcələrini əvəzləyəcəkdir;

4. Razılığa gələn Tərəflər, əgər başqa qayda nəzərdə tutulmayıbsa, bu Saziş qüvvəyə mindiyi tarixdən etibarən bu Sazişin I-A Əlavəsin və I-B Əlavəsi ilə müəyyən olunmuş mallara münasibətdə bütün qeyri-tarif maneələrini və malların hərəkətinə ekvivalent təsirə malik hər hansı tədbirləri ləğv edəcəklər;

5. Bu Saziş qüvvəyə mindiyi tarixdən etibarən Razılığa gələn Tərəflər arasında bu Sazişin I-A Əlavəsi və I-B Əlavəsi ilə müəyyən olunmuş mallarla ticarətdə hər hansı bir yeni qeyri-tarif maneələri və ya ekvivalent təsirə malik tədbirlər tətbiq edilməyəcəkdir;

6. Razılığa gələn Tərəflər para-tarif tədbirlərinin siyahılarını mübadilə edəcək və bu Sazişin qüvvəyə mindiyi tarixdən etibarən malların sərbəst hərəkətində mövcud olan para-tarif tədbirlərini ləğv edəcəklər.

7. Bu Sazişin qüvvəyə mindiyi andan etibarən bu Sazişin I-A Əlavəsi və I-B Əlavəsi ilə müəyyən olunmuş malların hərəkətində hər hansı bir yeni para-tariflər tətbiq olunmayacaqdır.

8. Bu Sazişin qüvvəyə mindiyi tarixdən etibarən Razılığa gələn Tərəflər arasında bu Sazişin I-A Əlavəsi və I-B Əlavəsi ilə müəyyən olunmuş mallarla ticarətdə hər hansı yeni tariflər və ya ekvivalent təsirə malik ödənişlər tətbiq edilməyəcəkdir;

9. Razılığa gələn Tərəflər Birgə Komitənin iclasları çərçivəsində məsləhətləşmələr vasitəsilə ikitərəfli ticarətlərinin daha da liberallaşdırılmasını nəzərdən keçirəcəklər.

## MADDƏ 8

## Ən əlverişli rejim

Razılığa gələn Tərəflər mallarla ticarətdə tətbiq olunan bütün qaydalarla, tənzimləmələrlə, prosedurlarla və formallıqlarla əlaqəli olaraq hər hansı digər ölkəyə verdiyi rejimdən daha az əlverişli olmayan rejimi bir birinə verəcəklər. Buna baxmayaraq, Razılığa gələn Tərəflər arasında xüsusi qarşılıqlı saziş olmadıqda, onların hər bir Razılığa gələn Tərəfin avtonom rejim, sərbəst ticarət sazişi, preferensial ticarət sazişi, regional ticarət sazişi, gömrük ittifaqı sazişi və ya çoxtərəfli ticarət sazişi çərçivəsində başqa bir ölkəyə verdiyi tarif kvotalarından və ya tarif güzəştlərindən faydalanmaq hüquqları olmayacaqdır.

## MADDƏ 9

## Milli rejim

Hər bir Razılığa gələn Tərəfin digər Razılığa gələn Tərəfə idxal olunan mallarına onların satışına, satışa təklif olunmasına, alınmasına, daşınmasına, paylanılmasına və ya istifadəsinə təsir edən qanunlar, tənzimləmələr və tələblər ilə əlaqədar olaraq yerli mənşəli oxşar məhsullardan daha az əlverişli olmayan rejim tətbiq olunacaqdır.

## MADDƏ 10

## Mənşə qaydaları

1. Razılığa gələn Tərəflər aralarındakı ticarətdə preferensial mənşə qaydalarını tətbiq etmək barədə razılığa gəldilər.

2. Bu Sazişin müddəaları ilə əhatə olunan mallar bu Sazişin II Əlavəsi ilə müəyyən olunmuş mənşə qaydalarına uyğun olması şərtilə preferensial rejimdən istifadə edəcəklər.

3. Bu Sazişin II Əlavəsi ilə müəyyən olunmuş mənşə qaydalarına dəyişikliklərin edilməsinə ehtiyac olduqda, Birgə Komitə zəruri prosedurları başladacaqdır.

## MADDƏ 11

## Antidempinq və kompensasiya tədbirləri

1. Dempinq və ya subsidiya səbəbindən yaranan zərərin qarşısının alınması məqsədilə, Razılığa gələn Tərəflər milli qanunvericiliklərinə uyğun olaraq antidempinq və kompensasiya tədbirlərinin tətbiqi hüququna malik olacaqlar.

2. Antidempinq və kompensasiya araşdırmasının başlanılmasından əvvəl idxalatçı Razılığa gələn Tərəfin səlahiyyətli qurumları ixracatçı Razılığa gələn Tərəfin səlahiyyətli qurumlarına ağlabatan müddət ərzində bildiriş təqdim edəcəklər.

3. Araşdırma başlandığı andan, idxalatçı Razılığa gələn Tərəfin səlahiyyətli qurumları daxil olmuş yazılı ərizənin konfidensial olmayan mətnini məlum ixracatçılara və ixracatçı Razılığa gələn Tərəfin səlahiyyətli qurumlarına təqdim edəcəkdir.

4. Araşdırmada istifadə olunan suallar kitabçasını almış maraqlı şəxslərə cavab üçün ən azı 30 günlük müddət veriləcəkdir. 30 günlük müddətin uzadılması ilə bağlı hər bir tələb diqqətə alınacaq və səbəbi göstərildiyi halda, mümkün olduğu təqdirdə belə uzatma veriləcəkdir.

5. İdxalatçı Razılığa gələn Tərəfin səlahiyyətli qurumları, yekun qərarın qəbul edilməsindən əvvəl, yekun tədbirlər tətbiq olunacaqsa, bu qərarın əsasını təşkil edən əsas faktlarla bağlı ixracatçı Razılığa gələn Tərəfi məlumatlandıracaqdır. Belə açıqlama Tərəflərin öz maraqlarını müdafiə etmələri üçün yetərli bir müddət ərzində ediləcəkdir.

## MADDƏ 12

## Mühafizə tədbirləri

1. Razılığa gələn Tərəflərin milli qanunvericiliklərinə uyğun olaraq tətbiq edilən mühafizə tədbirləri ilə əlaqədar hüquqlarına və öhdəliklərinə xələl gətirməməsi şərtilə, bu Saziş əsasında tarifin azaldılması və ya ləğvi nəticəsində Razılığa gələn Tərəf mənşəli mallar digər Razılığa gələn Tərəfin ərazisinə mütləq şəkildə və ya yerli istehsalla müqayisədə artan miqdarda idxal edildikdə və oxşar və ya birbaşa rəqabətli malları istehsal edən yerli sənayeyə ciddi zərər vurduqda və ya ciddi zərər vurulma təhlükəsi yaratdıqda, idxalatçı Razılığa gələn Tərəf bu Sazişin 20-ci maddəsinə uyğun olaraq digər Razılığa gələn Tərəflə ilkin məsləhətləşmələr aparmaqla, ikitərəfli mühafizə tədbirləri tətbiq edə bilər.

2. İkitərəfli mühafizə tədbirlərini tətbiq etməzdən əvvəl, belə tədbiri tətbiq etmək niyyətində olan Razılığa gələn Tərəf hər iki Razılığa gələn Tərəflərə görə qəbul edilə bilən həllin tapılması məqsədilə vəziyyətin araşdırılması üçün tələb olunan bütün müvafiq informasiya ilə digər Razılığa gələn Tərəfi təmin edəcəkdir. Belə həllin tapılması məqsədilə Razılığa gələn Tərəflər dərhal məsləhətləşmələr aparacaqlar. Məsləhətləşmələr nəticəsində Razılığa gələn Tərəflər 30 gün ərzində razılığa gələ bilmədikdə, şikayət edən Razılığa gələn Tərəf araşdırma prosesini başlada bilər.

3. Tərəf yalnız səlahiyyətli qurumlar tərəfindən həyata keçirilən araşdırma nəticəsində ikitərəfli mühafizə tədbirləri tətbiq edəcəkdir.

4. Bu Sazişin müddəaları çərçivəsində artan idxalın yerli sənayeyə ciddi zərər vurub-vurmadığını və ya ciddi zərər vurulma təhlükəsi yaradıb-yaratmadığını müəyyənləşdirmək məqsədilə aparılan araşdırmada səlahiyyətli qurumlar, xüsusilə baxılan məhsulun idxalındakı mütləq və nisbi artım dərəcəsi və miqdarı, artan idxalın malik olduğu ölkədaxili bazar payı, satışın, istehsalın, məhsuldarlığın, istehsal imkanlarından istifadənin, gəlirlərin və xərclərin və məşğulluğun səviyyəsindəki dəyişikliklər olmaqla, həmin sənaye sahəsinin vəziyyəti ilə əlaqəli obyektiv və ölçülə bilən təbiətə malik bütün əlaqəli faktorları diqqətə alacaqlar.

5. Bu maddənin 4-cü paraqrafında qeyd olunan müəyyənetmə, baxılan məhsulun artan idxalı ilə ciddi zərər və ya ciddi zərər vurulma təhlükəsi arasında səbəbli əlaqənin mövcudluğu obyektiv sübutlar əsasında araşdırma ilə sübut olunmayanadək, edilməyəcəkdir. Artan idxal ilə eyni zamanda digər faktorlar da yerli sənayeyə zərər vurduqda, belə zərər artan idxalla əlaqələndirilə bilməz.

6. Səlahiyyətli qurumlar, araşdırılan hadisənin detallı bir şəkildə təhlilini, habelə araşdırılan faktorların uyğunluğunun sübutunu dərhal dərc edəcəklər.

7. Hər bir Tərəf səlahiyyətli qurumlarının belə araşdırmanı onun başlanılması tarixindən etibarən 1 il ərzində yekunlaşdırılmasını təmin edəcəkdir.

8. Heç bir Tərəf ikitərəfli mühafizə tədbirini:

(a) ciddi zərərin qarşısının alınması və ya aradan qaldırılması və uyğunlaşmanın asanlaşdırılması üçün zəruri olan dərəcə və müddət xaricində tətbiq etməyəcəkdir;

(b) iki ildən çox olan müddət ərzində tədbiri tətbiq edən Tərəfin səlahiyyətli qurumlarının bu maddə ilə müəyyən edilən prosedurlara uyğun olaraq tədbirin ciddi zərərin qarşısının alınması və ya aradan qaldırılması və uyğunlaşmanın asanlaşdırılması üçün zəruri olma halının davam etdiyi və sənayenin uyğunlaşmaqda olduğuna sübutların olduğunu müəyyən etdiyi halda müddətin 1 ilədək, ikitərəfli mühafizə tədbirinin tətbiqinin ilkin tətbiq müddəti və hər hansı uzatma da daxil olmaqla, ümumi müddətinin üç ildən artıq olmaması şərtilə uzadıla bilməsi halı istisna olmaqla, tətbiq etməyəcəkdir; və ya

(c) keçid müddəti bitdikdən sonra tətbiq etməyəcəkdir.

9. İdxalatçı Razılığa gələn Tərəf aşağıdakıları nəzərdə tutan ikitərəfli mühafizə tədbirlərini tətbiq edə bilər:

(a) bu Saziş əsasında əlaqəli mala verilən tarif dərəcəsində azalmanı dayandırır; və ya

(b) mal üzərində tarif dərəcəsini aşağıdakılardan az olanını keçməyəcək səviyyəyə artırır:

(i) mala tətbiq olunan gömrük rüsumunun tədbirin tətbiq olunması zamanı qüvvədə olan dərəcəsi; və ya

(ii) bu Sazişin I-A Əlavəsi və I-B Əlavəsi ilə müəyyən olunmuş baza tarif dərəcəsi.

10. Tərəf ikitərəfli mühafizə tədbirinin tətbiqini ləğv etdiyi halda, gömrük rüsumunun dərəcəsini tədbirin tətbiq olunmaması halında bu Sazişin I-A Əlavəsinə və I-B Əlavəsinə əsasən qüvvədə olacaq dərəcə təşkil edəcəkdir.

11. Tərəf ikitərəfli mühafizə tədbirini yalnız bu Saziş qüvvəyə mindiyi tarixdən bir il keçdikdən sonra tətbiq edə bilər. Heç bir Tərəf eyni mala münasibətdə ikitərəfli mühafizə tədbirini bir dəfədən çox tətbiq etməyəcəkdir.

12. İkitərəfli mühafizə tədbirinin gözlənilən tətbiq müddəti bir ildən artıq olduğu halda, tətbiq edən Tərəf müntəzəm intervallarla tədbiri liberallaşdıracaqdır.

13. Razılığa gələn Tərəflər qlobal mühafizə tədbirləri tətbiq etmək hüququnu özündə saxlayır və bu maddənin heç bir müddəası qlobal mühafizə tədbirlərinin tətbiqini əngəlləməyəcəkdir.

14. Heç bir Tərəf eyni mala münasibətdə eyni zamanda aşağıdakıları tətbiq etməyəcəkdir:

(a) 12.1-ci maddəyə uyğun olaraq ikitərəfli mühafizə tədbirini; və

(b) qlobal mühafizə tədbirini.

**MADDƏ 13**

**Standartlar, texniki tənzimləmələr, sanitar və fitosanitar tədbirlər**

1. Razılığa gələn Tərəflər texniki tənzimləmələri, uyğunluğun qiymətləndirilməsi prosedurlarını və standartları qarşılıqlı ticarətə maneələr yaratmaq və ya yerli istehsalı qorumaq məqsədilə hazırlamayacaq, qəbul etməyəcək və ya tətbiq etməyəcəklər.

2. Razılığa gələn Tərəflər aşağıdakıları təmin edəcəklər:

a. sanitar və fitosanitar tədbirlər elmi prinsiplərə əsaslanaraq *yalnız* insan, heyvan və ya bitki həyat və ya sağlamlığını qorumaq üçün zəruri olan hədlərdə tətbiq olunur və müvafiq elmi məlumatların və regional şərtlərin mövcudluğu nəzərə alınaraq, kifayət qədər sübut olmadan davam etdirilmir,

b. standartlar və texniki tənzimləmələr qarşılıqlı ticarətə lüzumsuz maneələr yaratmaq məqsədi və ya təsiri ilə hazırlanmır, qəbul edilmir və ya tətbiq edilmir. Bu məqsədlə yerinə yetirməmənin yarada biləcəyi risk nəzərə alınmaqla, texniki tənzimləmələr qanuni məqsədin təmin edilməsi üçün zəruri olandan daha ticarəti məhdudlaşdırıcı olmayacaqdır. Belə qanuni məqsədlərə, digərləri ilə yanaşı, aiddir: bu Sazişin 16-cı və 17-ci maddələrində təsvir olunanlar, aldadıcı təcrübənin qarşısının alınması, ətraf mühitin mühafizəsi. Belə risklərin qiymətləndirilməsi zamanı, digərləri ilə yanaşı, qiymətləndirmənin müvafiq elementlərinə aid olacaqdır: mövcud elmi və texniki məlumatlar, əlaqəli emal texnologiyası və ya məhsulların nəzərdə tutulan son istifadələri.

## MADDƏ 14

### Ödəmə balansının çətinlikləri

Razılığa gələn Tərəflərdən hər hansı biri ödəmə balansının ciddi çətinlikləri və ya belə çətinlik təhlükəsi ilə üzləşdikdə, həmin Razılığa gələn Tərəf Beynəlxalq Valyuta Fondu haqqında Sazişin VIII və XIV maddələrində qeyd olunmuş şərtlərə uyğun olaraq, məhdud müddətdə qüvvədə qalacaqdır və ödəmə balansı vəziyyətinin yaxşılaşdırılması üçün zəruri olandan kənara çıxmayan məhdudlaşdırıcı tədbirlər tətbiq edə bilər. Həmin Razılığa gələn Tərəf digər Razılığa gələn Tərəfi tədbirlərin qüvvəyə minməsi ilə bağlı dərhal məlumatlandıracaq və mümkün ən qısa müddətdə digər Razılığa gələn Tərəfə tədbirlərin ləğvi qrafikini təqdim edəcəkdir.

## MADDƏ 15

### Təkrar ixrac və ciddi çatışmazlıq müddəası

1. Bir Razılığa gələn Tərəf bir ölkədən malın idxalına və ya bir ölkəyə malın ixracına qadağa və ya məhdudiyyət tətbiq etdikdə və ya davam etdirdikdə, bu Sazişin heç bir müddəası həmin Razılığa gələn Tərəfi aşağıdakıları həyata keçirməkdə əngəlləyəcək kimi şərh edilməyəcəkdir:

a) digər Razılığa gələn Tərəfin ərazisindən həmin digər ölkənin belə malının idxalını məhdudlaşdırmaq və ya qadağan etmək; və ya

b) belə malın digər Razılığa gələn Tərəfin ərazisinə ixracı şərti kimi, malın digər Razılığa gələn Tərəfin ərazisində istehlak edilmədən Razılığa gələn Tərəf olmayana birbaşa və ya dolayı olaraq təkrar ixrac edilməməsinin tələb edilməsi.

2. Bundan əlavə, bu Sazişin heç bir müddəası ixracatçı Razılığa gələn Tərəf üçün vacib olan məhsulun ciddi çatışmazlığının və ya ciddi çatışmazlıq təhlükəsinin ləğv edilməsi və ya qarşısının alınması üçün zəruri olan ticarəti məhdudlaşdırıcı hər hansı tədbirin saxlanılmasını və ya qəbulunu qadağan etməyəcəkdir. Tədbirlər ayrı-seçkilik etmədən tətbiq olunacaq və onların saxlanılmasını əsaslandıran şərtlər aradan qalxdıqda ləğv ediləcəkdir. Razılığa gələn Tərəflər bu maddəyə uyğun olaraq tədbirlər tətbiq etdikdə, dərhal bir-birini xəbərdar edəcəklər.

## MADDƏ 16
## Ümumi istisnalar

Razılığa gələn Tərəflər arasında ticarətdə süni və ya əsaslandırılmamış ayrı-seçkilik və ya gizli məhdudiyyət yaradacaq şəkildə tətbiq edilməmək şərtilə, bu Sazişin heç bir müddəası ictimai əxlaq, dini dəyərlər, milli təhlükəsizlik, insan, heyvan və bitki həyat və sağlamlığının qorunması, bədii, tarixi və ya arxeoloji dəyərə malik milli xəzinələrin qorunması, tükənən təbii ehtiyatların və genetik ehtiyatların qorunması, qızıl və ya gümüşə aid olan tənzimləmələr, hökumət stabilləşdirmə planı çərçivəsində qiyməti dünya qiymətlərindən aşağı saxlanılan bu məhsulların ixracına aid olan tənzimləmələr səbəbləri ilə əsaslandırılmış idxal, ixrac və tranzit daşınan mallar üzərindəki qadağaları və ya məhdudiyyətləri əngəlləməyəcəkdir.

## MADDƏ 17
## Təhlükəsizlik istisnaları

Bu Sazişin heç bir müddəası Razılığa gələn Tərəfin aşağıdakı təhlükəsizlik məqsədləri üçün zəruri hesab etdiyi hər hansı tədbiri tətbiq etməsinin qarşısını almayacaqdır:

a. vacib təhlükəsizlik maraqlarının əleyhinə olan konfidensial məlumatların açıqlanmasının qarşısının alınması;

b. vacib təhlükəsizlik maraqlarının qorunması və ya aşağıdakılarla əlaqəli beynəlxalq öhdəliklərin və ya milli siyasətin həyata keçirilməsi:

i. xüsusi olaraq hərbi məqsədli olmayan məhsullara münasibətdə rəqabət şərtlərinə zərər vurmaması şərtilə, silah, döyüş sursatı və müharibə vasitələrinin ticarətinə və hərbi təşkilatın təchiz edilməsi məqsədilə birbaşa və ya dolayı olaraq həyata keçirilən digər mallarla, materiallarla və xidmətlərlə ticarətinə aid olan; və ya

ii. bioloji, kimyəvi və nüvə silahlarının və ya digər nüvə partlayıcı qurğularının yayılmasının qarşısının alınmasına aid olan; və ya

iii. müharibə zamanı və ya digər ciddi beynəlxalq gərginlik zamanı qəbul olunan.

## MADDƏ 18

### Məlumat mübadiləsi

1. Digər Razılığa gələn Tərəfin müraciəti ilə hər bir Razılığa gələn Tərəf 30 gün ərzində bu Sazişin fəaliyyətinə təsir edə biləcək mövcud və ya təklif olunan tədbirə aid olan məlumatları təqdim edəcək və ya digər Razılığa gələn Tərəfin hər hansı bir sualına cavab verəcəkdir.

2. Hər bir Razılığa gələn Tərəf bu Sazişin əhatə etdiyi hər hansı bir ticarət məsələsinə aid olan qanun və tənzimləmələrin dərcini və ya ictimaiyyətə açıqlanmasını təmin edəcəkdir.

## MADDƏ 19

### Birgə Komitə

1. Hər Razılığa gələn Tərəfin nümayəndələrindən ibarət Birgə Komitə təsis *edilmişdir*. Birgə Komitə bu Sazişin tətbiq edilməsindən əldə olunan irəliləyişin nəzərdən keçirilməsi üçün ildə ən azı bir dəfə görüşəcəkdir. Razılığa gələn Tərəflərdən hər hansı biri digər Razılığa gələn Tərəfə bildiriş verməklə, növbədənkənar görüş keçirilməsini tələb edə bilər.

2. Birgə Komitə bu Sazişin müddəalarına uyğun olaraq ona verilən funksiyalardan hər hansı birini həyata keçirə bilər. Razılığa gələn Tərəflərdən birinin tələbi və digər Razılığa gələn Tərəfin təsdiqi əsasında Birgə Komitə bu Sazişin icrasına təsir göstərən digər hər hansı bir məsələni də araşdıra bilər. Birgə Komitə, həm də bu Sazişə aid olan məsələlərə dair tövsiyələr verə bilər.

3. Birgə Komitə fəaliyyəti ilə əlaqədar prosedur qaydalarını ilk iclasında müəyyənləşdirəcəkdir.

4. Birgə Komitə zəruri hesab etdiyi təqdirdə, hər hansı digər alt komitələr və ya işçi qrupları da yarada bilər.

## MADDƏ 20

### Məsləhətləşmələr və mübahisələrin həlli

1. Hər bir Razılığa gələn Tərəf bu Sazişin fəaliyyətinə təsir edəcək hər hansı bir məsələ ilə əlaqədar məsləhətləşmə tələblərinə müsbət yanaşacaq və məsləhətləşmələr üçün adekvat imkan yaradacaqdır.

2. Birgə Komitə yuxarıdakı 1-ci *paraqrafa* uyğun olaraq aparılan məsləhətləşmələr yolu ilə qənaətbəxş nəticənin əldə edilməsi mümkün olmayan

məsələnin nəzərdən keçirilməsi üçün, Razılığa gələn Tərəflərdən birinin tələbinin alındığı tarixdən sonrakı 30 gün ərzində toplanacaqdır.

3. Bu Sazişin şərhindən və (və ya) tətbiqindən yaranan istənilən mübahisə dostcasına ikitərəfli məsləhətləşmələr vasitəsilə həll olunacaqdır.

4. Razılığa gələn Tərəflər mübahisəni araşdırmaq və həll etmək üçün Birgə Komitəyə bütün köməkliyi göstərəcəklər.

5. Razılığa gələn Tərəflər Birgə Komitənin qərarlarının icrası üçün zəruri olan tədbirləri görəcəklər. Bir Razılığa gələn Tərəf qərarları icra etmədikdə, digər Razılığa gələn Tərəf ekvivalent preferensial rejimi geri çəkmək hüququna malik olacaqdır.

**MADDƏ 21**

**Öhdəliklərin yerinə yetirilməsi**

1. Razılığa gələn Tərəflər bu Sazişin məqsədlərinə nail olunmasının və bu Sazişdən irəli gələn öhdəliklərinin yerinə yetirilməsinin təmin edilməsi üçün bütün zəruri tədbirləri görəcəklər.

2. Əgər Razılığa gələn Tərəflərdən biri digər Razılığa gələn Tərəfin bu Sazişdən irəli gələn öhdəliyini yerinə yetirmədiyi qənaətinə gələrsə, sözügedən Razılığa gələn Tərəf ilk növbədə bu Sazişin 20-ci maddəsində qeyd olunan prosedurlara müraciət edəcəkdir.

3. Əgər məsləhətləşmələr üçün tələbin alındığı tarixdən sonrakı 30 gün ərzində məsləhətləşmə aparılmazsa və ya Birgə Komitə belə tələbin alındığı tarixdən sonrakı 90 gün ərzində mübahisəni həll edə bilməzsə, Tərəf ekvivalent preferensial rejimi geri çəkmək hüququna malik olacaqdır.

**MADDƏ 22**

**Dəyişikliklər**

Bu Sazişə Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişin ayrılmaz tərkib hissəsi olan ayrıca protokollarla əlavə və dəyişikliklər edilə bilər. Bu dəyişikliklər bu Sazişin 24-cü maddəsinə uyğun olaraq qüvvəyə minəcəkdir.

**MADDƏ 23**

**Qüvvədəolma müddəti və ləğvetmə**

1. Bu Saziş müddətsiz olaraq bağlanılmışdır.

2. Bu Saziş bir Razılığa gələn Tərəfin diplomatik kanallar vasitəsilə onu ləğv etmək barədə niyyətini bildirənədək etibarlıdır. Bu halda, bu Saziş digər Razılığa gələn Tərəfin ləğvetmə bildirişini aldığı tarixdən sonrakı yeddinci ayın ilk günü qüvvəsini itirəcəkdir.

## MADDƏ 24

## Qüvvəyəminmə

Bu Saziş hər bir Razılığa gələn Tərəfin həmin Sazişin qüvvəyə minməsi üçün milli qanunvericiliyində tələb olunan bütün prosedurların başa çatdırıldığını təsdiq edən sonuncu diplomatik bildirişin alınmasından sonrakı ikinci ayın ilk günü qüvvəyə minəcəkdir.

Bunun təsdiqi olaraq, Hökumətləri tərəfindən lazımi qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Sazişi imzaladılar.

Bu Saziş, Bakı şəhərində 25 fevral 2020-ci il tarixində, bütün mətnləri bərabər autentik olan, hər biri türk, Azərbaycan və ingilis dillərində olmaqla iki orijinal nüsxədə imzalanmışdır. Bu Sazişin müddəalarının şərhində fərqlilik olduğu təqdirdə, ingilis dilindəki mətn əsas götürüləcəkdir.

| TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN | AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN |
| --- | --- |
| Ruhsar PEKCAN | Mikayıl CABBAROV |
| Ticarət naziri | İqtisadiyyat naziri |

# ƏLAVƏLƏR

- **ƏLAVƏ I: MAL SİYAHILARI**

  - **ƏLAVƏ I-A: Türkiyə Respublikası tərəfindən preferensial ticarət rejiminin tətbiq olunduğu Azərbaycan Respublikası mənşəli malların siyahısı, baza tarif dərəcələri, tarifin azaldılması dərəcələri və illik tarif kvotasının miqdarı**

| Sıra №-si | HS 2017 | Məhsulun adı | Baza tarif dərəcəsi | Tarifin azaldılması dərəcəsi | İllik tarif kvotası |
|---|---|---|---|---|---|
| 1. | 0406 90 990 0 11 | Chester, Parmesan, Dutch və oxşar pendirlər | 45% | 100% | 100 ton |
| | 0406 90 990 0 12 | saçaq pendir | 140% | | |
| | 0406 90 990 0 19 | digər | 140% | | |
| 2. | 0806 10 100 0 | süfrə növləri | 54,9% | 100% | 3500 ton |
| 3. | 0808 10 800 0 | digərləri | 60,3% | 100% | 3000 ton |
| 4. | 0809 40 | gavalılar və göyəm: | 55,8% | 100% | 3000 ton |
| 5. | 0810 70 000 0 | xurma | 50% | 100% | 30000 ton |
| 6. | 0902 30 000 0 | ilkin qablaşdırılmalarda netto çəkisi 3 kq-dan çox olmayan qara çay (fermentləşdirilmiş) və ya qismən fermentləşdirilmiş çay | 145% | 100% | 300 ton |
| 7. | 1512 19 900 0 | digərləri | 67,5% | 100% | 5000 ton |
| 8. | 1516 20 980 0 | digərləri | 46,8% | 100% | 2500 ton |
| 9. | 1701 99 100 0 | ağ şəkər | 135% | 100% | 5000 ton |
| 10. | 1806 90 190 0 | digərləri | 8,3%+T1 | 100% | 1250 ton |
| 11. | 2001 10 000 0 | xiyar və kornişon | 39% | 100% | 500 ton |
| 12. | 2002 90 990 0 | ilkin qablaşdırılmalarda netto çəkisi 1 kq-dan çox olmayan | 135,9% | 100% | 750 ton |
| 13. | 2007 99 970 0 13 | diabet xəstələri üçün | 0% | 100% | 3000 ton |
| | 2007 99 970 0 14 | fındıq püresi | 58,5% | | |
| | 2007 99 970 0 15 | alma püresi (kompotlar daxil olmaqla) | 58,5% | | |
| | 2007 99 970 0 16 | ərik püresi | 58,5% | | |
| | 2007 99 970 0 17 | gavalı püresi | 58,5% | | |
| | 2007 99 970 0 18 | digər | 58,5% | | |
| 14. | 2009 79 190 0 | digər | 58,5% | 100% | 2000 ton |
| 15. | 2204 21 960 0 | digərləri | 70% | 100% | 900000 litr |

o **ƏLAVƏ I-B: Azərbaycan Respublikası tərəfindən preferensial ticarət rejiminin tətbiq olunduğu Türkiyə Respublikası mənşəli malların siyahısı, baza tarif dərəcələri, tarifin azaldılması dərəcələri və illik tarif kvotasının miqdarı**

| Sıra №-si | HS 2017 | Məhsulun adı | Baza tarif dərəcəsi | Tarifin azaldılması dərəcəsi | İllik tarif kvotası |
|---|---|---|---|---|---|
| 1. | 0406 30 310 0 | 48 kütlə %-dən çox olmayan | 15 % | 100% | 150 ton |
| 2. | 1206 00 990 0 | digərləri | 5 % | 100% | 5000 ton |
| 3. | 1517 90 990 0 | digərləri | 15 % | 100% | 5000 ton |
| 4. | 1704 10 100 0 | tərkibində saxarozanın miqdarı 60 kütlə %-dən az olan (saxaroza kimi ifadə edilən invert şəkəri də daxil olmaqla) | 15 % | 100% | 400 ton |
| 5. | 1704 90 710 0 | içlikli və ya içliksiz şəkərləmə karameli | 15 % | 100% | 1500 ton |
| 6. | 1704 90 750 0 | toffi, digər karamel və analoji şirniyyat | 15 % | 100% | 4000 ton |
| 7. | 1704 90 810 0 | preslənmiş həblər | 15 % | 100% | 200 ton |
| 8. | 1806 20 800 0 | şokolad minası | 15% | 100% | 500 ton |
| 9. | 1806 31 000 0 | içlikli | 15 % | 100% | 1300 ton |
| 10. | 1806 32 100 0 | taxıl dəni, barlar və ya qoz-fındıq əlavə edilmiş | 15 % | 100% | 500 ton |
| 11. | 1806 90 500 0 | tərkibində kakao olan şəkəri əvəz edən məhsullardan hazırlanmış, şəkərdən qənnadı məmulatları və onların əvəzediciləri | 15 % | 100% | 1500 ton |
| 12. | 1901 90 990 0 | digərləri | 15 % | 100% | 1500 ton |
| 13. | 1902 30 100 0 | qurudulmuş | 15 % | 100% | 1000 ton |
| 14. | 1905 32 990 0 | digərləri | 15% | 100% | 1000 ton |
| 15. | 2002 90 390 0 | ilkin qablaşdırılmalarda netto çəkisi 1 kq-dan çox olmayan | 15% | 100% | 750 ton |

ƏLAVƏ II

# MALLARIN PREFERENSİAL MƏNŞƏ QAYDALARI VƏ İNZİBATİ ƏMƏKDAŞLIQ METODLARI HAQQINDA QAYDALAR

---

## MÜNDƏRİCAT


| | |
|---|---|
| **FƏSİL I** | **ÜMUMİ MÜDDƏALAR** |
| - Maddə 1 | Əhatə dairəsi |
| - Maddə 2 | Anlayışlar |
| **FƏSİL II** | **MALLARIN MƏNŞƏYİNİN TƏYİN EDİLMƏSİ** |
| - Maddə 3 | Ümumi tələblər |
| - Maddə 4 | Tamamilə istehsal edilmiş və ya əldə edilmiş mallar |
| - Maddə 5 | Kifayət qədər işlənmiş və ya emal olunmuş mallar |
| - Maddə 6 | Kifayət etməyən işləmə və ya emal |
| - Maddə 7 | Mənşənin kumulyasiya prinsipi |
| - Maddə 8 | Təsnifat vahidi |
| - Maddə 9 | Aksessuarlar, ehtiyat hissələri və alətlər |
| - Maddə 10 | Dəstlər |
| - Maddə 11 | Neytral elementlər |
| **FƏSİL III** | **ƏRAZİ TƏLƏBLƏRİ** |
| - Maddə 12 | Birbaşa daşınma |
| **FƏSİL IV** | **MƏNŞƏNİN SÜBUTU** |
| - Maddə 13 | Ümumi tələblər |
| - Maddə 14 | "TR-AZ Mənşə Sertifikatı"nın verilməsi proseduru |
| - Maddə 15 | "TR-AZ Mənşə Sertifikatı"nın təqdim edilməsinə dair tələblər |
| - Maddə 16 | "TR-AZ Mənşə Sertifikatı"nın sonradan verilməsi |
| - Maddə 17 | "TR-AZ Mənşə Sertifikatı"nın dublikatının verilməsi |
| - Maddə 18 | Daha əvvəl hazırlanmış və ya verilmiş mənşənin sübutu əsasında "TR-AZ Mənşə Sertifikatı"nın verilməsi |
| - Maddə 19 | "TR-AZ Mənşə Sertifikatı"nın etibarlılıq müddəti |
| - Maddə 20 | Malların mənşəyini təsdiq edən sənədlər |
| - Maddə 21 | "TR-AZ Mənşə Sertifikatı"nın və malların mənşəyini təsdiq edən sənədlərin saxlanılması |
| - Maddə 22 | Uyğunsuzluqlar və texniki səhvlər |
| **FƏSİL V** | **İNZİBATİ ƏMƏKDAŞLIQ TƏDBİRLƏRİ** |
| - Maddə 23 | Qarşılıqlı yardım |
| - Maddə 24 | Mənşə sübutlarının yoxlanılması |
| - Maddə 25 | Mübahisələrin həlli |
| - Maddə 26 | Cərimələr |
| - Maddə 27 | Sərbəst zonalar |
| **FƏSİL VI** | **YEKUN MÜDDƏALAR** |

- Maddə 28 Gömrük və mənşə məsələləri üzrə Alt-Komitə
- Maddə 29 Qoşma
- Maddə 30 Tranzitdə və saxlancda olan mallar
- Maddə 31 Dəyişikliklər
QOŞMA: "TR-AZ MƏNŞƏ SERTİFİKATI" FORMASININ NÜMUNƏSİ

## FƏSİL I
## ÜMUMİ MÜDDƏALAR

### Maddə 1
### Əhatə dairəsi

Əlavə II Türkiyə Respublikası və Azərbaycan Respublikası (bundan sonra - müvafiq olaraq Türkiyə və Azərbaycan və ya Razılığa gələn Tərəflər) arasındakı Preferensial Ticarət Sazişi (bundan sonra - "Saziş" adlandırılacaq) üzrə preferensial güzəştlər üçün uyğun olan malların mənşəyinin təyin edilməsi məqsədilə tətbiq edilir.

### Maddə 2
### Anlayışlar

Bu Əlavənin məqsədləri üçün:

(a) "fəsillər" və "başlıqlar" Malların Təsviri və Kodlaşdırılmasının Harmonikləşdirilmiş Sistemini (bundan sonra - HS) təşkil edən nomenklaturada istifadə olunan fəsillər və başlıqları (dördrəqəmli kodları) bildirir;

(b) "təsnifat" məhsul və ya materialın müəyyən başlıq altında təsnifatını nəzərdə tutur;

(c) "gömrük dəyəri" idxal edilən malların sövdələşmə qiymətini; yəni ixrac məqsədilə idxal edilən ölkəyə satılan zaman mallar üçün digər yığıla bilən ödənişlər və tənzimləmələr də daxil olmaqla, faktiki ödənilmiş və ya ödənilməli olan qiyməti bildirir. Gömrük dəyəri sövdələşmə qiyməti əsasında müəyyən edilə bilmədiyi hallarda, aşağıdakı üsullardan birindən istifadə olunmaqla müəyyən ediləcəkdir:

   i. eyni malların sövdələşmə qiyməti;
   ii. eynicinsli malların sövdələşmə qiyməti;
   iii. dəyərin çıxılması üsulu;
   iv. dəyərin toplanması üsulu;
   v. ehtiyat üsul;

(d) "mallar" dedikdə, həm materiallar, həm də məhsullar nəzərdə tutulur;

(e) "istehsal" həm sənaye, həm də kənd təsərrüfatı məhsulları üzərində yığılma və ya xüsusi əməliyyatlar daxil olmaqla, hər hansı kifayət qədər işləməni və ya emalı nəzərdə tutur;

(f) "material" məhsulun istehsalında istifadə olunan hər hansı inqrediyent, xammal, komponent və ya hissə və s. bildirir;

(g) "məhsul" istehsal edilən məhsul mənasını verir, sonradan başqa istehsal əməliyyatında istifadə olunmaq üçün nəzərdə tutulduğu halda belə;

(h) "ərazilər" ərazi suları da daxil olmaqla, Razılığa gələn Tərəflərin ərazilərini nəzərdə tutur;

(i) "materialların dəyəri" istifadə olunmuş qeyri-preferensial mənşəli materialların idxalı zamanı olan gömrük dəyəri və ya bu dəyər bilinmədikdə, yaxud müəyyən edilə bilmədikdə, Razılığa gələn Tərəfin ərazisində qeyri-preferensial mənşəli materiallar üçün ödənilən ilk müəyyən oluna bilən qiyməti bildirir;

(j) "əlavə dəyər" franko-zavod qiymətindən malı təşkil edən və mənşə ölkəsi digər Razılığa gələn Tərəf olan materialların hər birinin gömrük dəyəri və ya gömrük dəyəri bilinmədikdə, yaxud müəyyən edilə bilmədikdə, Razılığa gələn Tərəfin ərazisində materiallar üçün ödənilən ilk müəyyən oluna bilən qiymət çıxılmaqla alınan qiyməti bildirir;

(k) "franko-zavod qiyməti" malın sonuncu işlənmə və ya emala məruz qaldığı Razılığa gələn Tərəfin ərazisində məhsul üçün franko-zavod şərtilə istehsalçıya ödənilən qiyməti nəzərdə tutur, bu şərtlə ki, qiymət əldə edilmiş məhsul ixrac edildiyi zaman geri ödənilən və ya geri ödənilə bilən hər hansı daxili vergilər istisna olmaqla, istifadə edilmiş bütün materialların dəyərini ehtiva etsin;

(l) "gömrük orqanları" Türkiyənin Ticarət Nazirliyini və Azərbaycanın Dövlət Gömrük Komitəsini ifadə edir;

(m) "mal partiyası" eyni vaxtda bir ixracatçı tərəfindən bir yükalana göndərilən və ya ixracatçıdan yükalana göndərilən yükü əhatə edən nəqliyyat sənədləri ilə əhatə olunan və ya belə sənəd olmadıqda, bir hesab faktura ilə əhatə olunan məhsulları bildirir;

(n) "rezident" Razılığa gələn Tərəfin milli qanunvericiliyinə əsasən yaşayış, daimi nümayəndəlik, idarəetmə, qeydiyyat və yaradılma yerinə və ya istənilən digər analoji xarakteristikalara əsasən vergiyə cəlb olunan, istənilən fiziki və hüquqi şəxslər; müəssisələr və ya təşkilatları bildirir;

(o) "ixracatçı" bir Razılığa gələn Tərəfin digər Razılığa gələn Tərəfin ərazisinə malları ixrac edən, malların mənşə ölkəsini sübut edə bilən və buna görə məsuliyyət daşıyan rezidentidir;

(p) "idxalatçı" bir Razılığa gələn Tərəfin digər Razılığa gələn Tərəfdən malı alan rezidentidir;

(q) "səlahiyyətli orqan" Razılığa gələn Tərəfin milli qanunvericiliyinə əsasən "TR-AZ Mənşə Sertifikatı"nı vermək səlahiyyətinə malik olan orqanı bildirir.

## FƏSİL II
## MALLARIN MƏNŞƏYİNİN TƏYİN EDİLMƏSİ

### Maddə 3
### Ümumi tələblər

Bir Razılığa gələn Tərəfin ərazisinə digər Razılığa gələn Tərəfin ərazisindən idxal edilmiş, 12-ci maddədə nəzərdə tutulduğu kimi birbaşa göndərilmiş, bu Saziş ilə əhatə olunan mallar aşağıdakı şərtlərdən hər hansı biri üzrə mənşə tələbinə cavab verdiyi təqdirdə, preferensial güzəştlərdən yararlanacaqlar:

(a) Razılığa gələn Tərəfdə tam istehsal edilmiş və ya əldə edilmiş və 4-cü maddənin tələblərinə cavab verən mallar; və ya

(b) bir Razılığa gələn Tərəfdə əldə edilmiş, lakin tərkibinə orada tam əldə edilməmiş materiallar daxil olan mallar, bu şərtlə ki, belə materiallar 5-ci maddəyə uyğun olaraq həmin Razılığa gələn Tərəfdə kifayət qədər işləməyə və ya emala məruz qalmış olsun.

